# "Nurlu əməllərin işığında"

Adı XX əsrin əvvəllərində Azərbaycanın məşhur 11 milyonçusu sırasına düşən və bu siyahıda öncül yerlərdən birini tutan xeyriyyəçi Ağa Musa Nağıyev xalqın "Tikmədim özüm qalam, tikdim ki, izim qala" məşhur deyimini sanki özünə deviz seçdi.

XIX əsrin 60-cı illərindən başlayaraq Bakı neftinin nəinki Azərbaycanda, eləcə də Rusiya istehsalatında iqtisadi rolu artdıqca, şəhərin ictimai həyatında böyük dəyişikliklər baş verirdi.

Məhz bu illərdə Ağa Musa Nağıyev mədəniyyət, maarif, sağlamlıq ocaqlarını inşa etdirib xalqın istifadəsinə verməklə milli dirçəlişimizdə böyük rolu olmuşdur.

Neft milyonçusu, xeyriyyəçi Ağa Musa Nağıyevin nəslindən olan Dilarə Ağamusa 1998-ci ildən babası Ağa Musa, atası Fərəc Nağıyevlərin fəaliyyətinin tədqiqatı ilə məşğul olur.

Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" ictimai birliyinin sədri, AYB və AJB-nin üzvü, Prezident təqaüdçüsü olan Dilarə Nağıyeva "Ömrün səhifələri", "Zamanın sorağında" adlı kitab və monoqrafiyaları ilə babası Ağa Musa Nağıyevin ömür yolunu işıqlandırmaqla geniş tədqiqat aparmışdır.

AQC-nin sədr müavini olmaqla ictimai fəaliyyətlə məşğul olan Dilarə Nağıyevanın yenicə işıq üzü görmüş "Nurlu əməllərin işığında" kitabını oxuculara təqdim etmişdir. Dilarə xanımın Ağa Musa Nağıyevin mənalı ömür yoluna yenidən müraciət etməsi və onun vətənpərvərlik hisslərindən, humanizmindən və incə, nəcib duyğularından, millətin formalaşmasında xidmətləri olan soykökə ehtiramından və məhəbbətindən irəli gəlir.

Ağa Musa Nağıyevin vəfatından 96 il keçir. Hər il mart ayının əvvəllərində məşhur neft milyonçusunun anım günü kimi qeyd edilir.

Bu münasibətlə Ağa Musa Nağıyev adına "Milli Dəyərlərimizin Qorunması" ictimai birliyinin təşkilatçılığı ilə Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki köhnə qəbiristanlıqda uyuyan neft milyonçusu, xeyriyyəçi Ağa Musa Nağıyevin anım günü ilə bağlı tədbir keçirilmişdir. Binəqədi Rayon İcra Hakimiyyətinin, AQC-nin, ayrı-ayrı ictimai birliklərin, xeyriyyəçilərin, şair, yazıçı və kənd sakinlərinin, Biləcəri qəsəbə nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbiri Dilarə Ağamusa Nağıyeva açaraq demişdir:

—Babam Ağa Musa Nağıyev 1849-cu ildə Bakının Biləcəri kəndində saman satmaqla məşğul olan Hacı Nağının ailəsində dünyaya göz açmışdır. 11 yaşlı Musa ağır zəhmətə qatlaşıb hamballıq etmiş və ailəsinə yardımçı olmuşdur.

Əlinin qabarının, ayaqlarının döyənəklərinin ağrısından əziyyət çəkərkən o, ağlına da gətirməzdi ki, əkin məqsədilə aldığı kiçik torpaq sahəsində qazdırdığı quyudan su əvəzinə fontan vuran neft onu Bakının ən iri maqnatlarından birinə çevirəcək. Nefti vedrə ilə satan Musa, sonradan 30 min işçiyə çörək verən, saysız-hesabsız var-dövləti idarə etməklə savadın əsas şərt olmadığını, ən böyük universitetin həyatın özü olduğunu ağlına da gətirməzdi.

Onun tikdirdiyi binalar indi də əzəmətilə Bakımızı daha da gözəlləşdirir.



Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsal İsmayılov qeyd etmişdir ki, rayon icra hakimiyyətinin başçısı Xaləddin müəllimin təşkilatçılığı ilə bu ziyarətgah tezliklə muzeye çevriləcəkdir. Ağa Musa Nağıyevin, Hacı Zeynalabdin Tağıyevin, eləcə də xeyriyyəçi Bakı milyonçuların xatirəsi hər zaman xalqımızın qəlbində yaşayacaqdır.

Hacı Əvəz Sərraf demişdir ki, uzun müddət baxımsız qalmış məzarı öz şəxsi vəsaiti hesabına yenidən abadlaşdırmaqla az da olsa əməyim olubsa, özümü xoşbəxt hiss edirəm. AQC-nin sədri Bahar Qasımova, professorlar Asif Rüstəmli, Ziyatxan Nəbibəyli, ehtiyyatda olan polkovnik Gülbahar Məmmədova, şair Mərcan Şahbuzlu, bədii qiraətçi Eldost Bayram Bakı milyonçularının gördüyü əvəzsiz xidmətlərdən danışmışlar.

Sonra tədbir iştirakçılarına Dilarə Ağamusa Nağıyevanın "Nurlu əməllərin işığında" kitabı hədiyyə edilmişdir.

**Rauf İLYASOĞLU,**
**"Respublika"**
**Foto İlqam CƏBİYEV.**